# Böyük qayıdışın ilk ünvanı... Cəbrayıl



***Prezident İlham Əliyev oktyabrın 4-də Cəbrayıl rayonuna səfər edib. Dövlət başçımızın da dediyi kimi Cəbrayıl səfərinin məhz oktyabrın 4-də həyata keçirilməsi xüsusi məna kəsb edir. Belə ki, bir il əvvəl həmin gün Cəbrayıl Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdi. Aradan keçən bir ildə böyük işlər reallaşdırılıb. Hər birimiz aradan keçən illər ərzində ermənilərin işğal altında olan torpaqlarımızda törətdikləri vəhşiliklərdən xəbərdarıq. Cəbrayıl da istisna deyil. Görülən işlərin miqyasına baxdıqda söyləmək olur ki, Azərbaycanın bərpa prosesini gerçəkləşdirmək üçün geniş imkanları var. Bu fikirləri bizimlə söhbətində Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, fəlsəfə elmləri üzrə fəlsəfə doktoru Telman Haqverdiyev bildirdi. Telman müəllim dedi:***

– İşğaldan azad edilməsinin bir illiyində Prezident İlham Əliyevin Cəbrayılı ziyarət etməsi, burada görülən işlərlə tanış olması təkcə cəbrayıllılar üçün deyil, ümumilikdə bütün Azərbaycan xalqı üçün əlamətdar hadisədir. Məlumdur ki, son bir il ərzində respublikada mövcud olan potensialın, texnikanın, resursların böyük əksəriyyəti işğaldan azad edilmiş torpaqlarımızın bərpasına yönəldildi. Zəfər xronologiyamıza nəzər salsaq, Cəbrayılın işğaldan azad edilməsinin xüsusi yeri olduğunu görərik. Çünki Cəbrayıl şəhəri Vətən müharibəsində işğaldan azad edilən ilk şəhər-rayon mərkəzi idi.

Ölkəmizin başçısı Cəbrayıl rayonuna səfəri zamanı bir çox obyektin təməlqoyma mərasimində, bəzilərinin isə açılışında iştirak etdi. Səfəri daha əlamətdar edən hadisələrdən biri də dövlətimizin başçısına Cəbrayıl şəhərinin baş planı təqdim edildi. Bu isə o deməkdir ki, aparılan işlər bundan sonra daha da sürətlənəcək. Əlbəttə, işğaldan azad edilmiş torpaqlarda reallaşdırılmalı tədbirlərin başında bu ərazilərin təhlükəsizliyinin təmin edilməsi məsələsi gəlir. Bu mənada Prezident İlham Əliyev Cəbrayılda olarkən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsinin açılışında iştirak edib. Açılış zamanı dövlət başçısına hərbi hissədə yaradılan şəraitlə bağlı məlumat verildi, müasir avadanlıq, silah-sursat nümayiş etdirildi.

Səfər zamanı həmçinin "Araz Vadisi İqtisadi Zonası"nın təməli qoyuldu. Bu layihə 200 hektar ərazini əhatə edir. Səfər zamanı "KamAz" regional xidmət mərkəzinin açılış mərasimi keçirildi. Şirkətin vitse-prezidenti və Tatarıstan Respublikasının Baş nazirinin müavini açılış üçün xüsusi olaraq Azərbaycana gəlib.

Qeyd edək ki, Cəbrayıl rayonunda elektrik təchizatının verilməsi üçün demək olar ki, bütün lazımi işlər görülüb. Cəbrayıl yarımstansiyası artıq istifadəyə verilib. Bundan əlavə Laçın və Kəlbəcər rayonlarında da su elektrik stansiyalarında bərpa işləri davam etdirilir. Əlbəttə, elektrik enerjisinin bərpa edilməsi ən önəmli məsələlərdən biridir. Ölkə başçısının da qeyd etdiyi kimi, əraziyə elektrik enerjisinin verilməsi təmin edilməsə, heç nə etmək mümkün olmayacaq.

Ümumiyyətlə, işğaldan azad edilən bütün ərazilərdə bərpa işləri sürətlə davam etdirilir. Qısa zaman ərzində görülən işlərin miqyası onu göstərir ki, tezliklə ermənilərin viran qoyduğu dədə-baba torpaqlarımızda həyat bərpa ediləcək.

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV, "Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 6 oktyabr.- S.13.